# Beynəlxalq müsabiqələr laureatı

Ləman Əsədova 1999-cu ildə Bakı şəhərində anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin orkestr şöbəsində violin ixtisası üzrə X sinifdə təhsil alır. O, müxtəlif müsabiqə və festivallarda uğurla iştirak edib. 2014-cü ildə İslam Dünyası Gənclərinin klassik musiqi ifaçılarının III beynəlxalq müsabiqəsinin laureatı olub. 2015-ci ildə Rusiyanın Oryol şəhərində keçirilən Delfi Oyunları beynəlxalq müsabiqəsində iştirak edərək müsabiqənin diplom və sertifikatına layiq görülüb. Həmin ilin dekabrında Novosibirskdə keçirilən gənc ifaçıların Çaykovski adına Beynəlxalq müsabiqəsində uğurla çıxış edərək "Ümid" adlı xüsusi mükafatı qazanıb.



Ləman seçdiyi ixtisasın bütün incəliklərinə yiyələnmək üçün daim öz üzərində çalışır. "Kapellhaus"da dəfələrlə solo konsertlərlə çıxış edib. Bu konsertlərdə Qərbi Avropa, rus, Azərbaycan bəstəkarlarının əsərlərini məharətlə ifa edib. Gənc istedad Rusiyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə I yerə layiq görülüb. "Barokko musiqisi" adlı festivalda isə uğurlu çıxışına görə diplomla mükafatlandırılıb.

Qeyri-adi istedad sahibi Ləman Əsədova xalq artisti Teymur Göyçayevin rəhbərliyi altında Q. Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində dəfələrlə solist kimi çıxış edib.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*